# Şuşaya qayıdış unudulmaz tarixi hadisədir

"Prezident İlham Əliyev mayın 10-da Ulu Öndər Heydər Əliyevin 101-ci doğum günündə şuşalılarla yanaşı bütün xalqımıza tarixi gün yaşatdı. 32 ildən sonra şuşalılar öz doğma yurd yerlərinə döndülər. Dövlət başçısı Şuşaya köçmüş ilk sakinlərlə görüşdü və şəhərin azad edilməsində Azərbaycan hərbçilərinin göstərdikləri şücaət və igidlikdən danışdı".

Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Kamilə Əliyeva söyləyib. Deputat bildirib ki, Şuşa bütün azərbaycanlıların qürur mənbəyi, mədəniyyət paytaxtıdır: "Şuşa həm də türk və islam dünyası üçün əziz şəhərdir. Ona görə də Vətən müharibəsində Şuşanın işğaldan azad edilməsi xalqımızın ləyaqətinin özünə qaytarılması və müharibədə zəfərimizin təntənəsi idi. Şuşanı işğaldan azad edən mərd oğullarımız dünya hərb tarixinə yazılan böyük igidlik göstəriblər. Ümumiyyətlə Azərbaycan Ordusu Qarabağ və Şərqi Zəngəzurun azad edilməsində xalqımızın sarsılmaz ruhunu və əzəmətini nümayiş etdirib".



Deputat deyib ki, Şuşa şəhəri öz əvvəlki tarixi görkəmini saxlamaqla ən müasir formada yenidən qurulur: "Yeni yaşayış kompleksləri inşa edilir, ermənilərin təhqir etdiyi məscidlərimiz bərpa və ya təmir olunur. Doğma yurda qayıdan sakinlərin məşğulluq məsələsi öz həllini tapır. Qarabağ və Şərqi Zəngəzur dünyanın ən gözəl məkanına çevrilir. Bu, Azərbaycanın siyasi və iqtisadi cəhətdən güclü dövlət olmasının nümunəsidir".

Azərbaycanın bu tərəqqi yoluna Heydər Əliyev hakimiyyətə gəldikdən sonra qədəm qoyduğunu vurğulayan Kamilə Əliyeva əlavə edib: "Həmin vaxta qədər ölkəmizdə xaos, özbaşınalıq hökm sürürdü. Hakimiyyətə gəlmək uğrunda AXC - Müsavat cütlüyünün satqınlığı Şuşanın işğalına səbəb olmuşdu. Alınmaz qala olan Şuşa müdafiəsiz qalmış, azərbaycanlılar doğma yurddan didərgin düşmüşdülər. Yəni Şuşanın ermənilərə təhvil verilməsinin səbəbi o vaxt hakimiyyətdə olanların qorxaqlığı idi. Vaxtilə Şuşanın işğalı nəticəsində hakimiyyətə gələnlərin bugünkü qələbəmizə də sevinməmələri bu baxımdan təsadüfi deyil. Onların düşüncələri Ermənistandakı revanşist qüvvələrlə eynidir".

Deputat onu da deyib ki, Ulu Öndər Heydər Əliyev xalqın haqlı tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra ordumuz bir komandanlıq altında quruldu: "Heydər Əliyevin rəhbərliyi ilə Füzuli rayonunda keçirilən hərbi əməliyyatlar nəticəsində bir neçə yaşayış məntəqəmiz işğaldan azad edildi. 1994-cü ildə imzalanan atəşkəsdən sonra Azərbaycan siyasi, iqtisadi, hərbi cəhətdən güclənməyə başladı. Vətən müharibəsində qazandığımız qələbə də bu mənada Heydər Əliyevin qoyduğu möhkəm təməllərə dayanır".

Kamilə Əliyeva yekunda qeyd edib ki, bu gün bölgənin ən güclü və qüdrətli dövləti Azərbaycandır: "Cənubi Qafqazda Azərbaycanın iradəsindən kənar heç bir məsələ həll oluna bilməz. Ermənistanı silahlandıranlar da başa düşməlidirlər ki, ölkəmizə qarşı yönəldilən hər cür təxribatın qarşısı qətiyyətlə və sərt şəkildə alınacaq. Heç bir qüvvə Azərbaycanın qarşısında davam gətirə bilməz".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 14 may, № 99.- S.7.